# Tar

Mikayıl Müşfiq

*Bir hissə*

Oxu, tar, oxu, tar!...
Səsindən ən lətif, şeirlər dinləyim.
Oxu, tar, bir qədər!..
Nəğməni su kimi alışan ruhuma çiləyim.
Oxu, tar!
Səni kim unudar?
Ey geniş kütlənin acısı, şərbəti –
Alovlu sənəti!

Gözləri qibləyə açılan hasarlı binalar.
Dinləmiş əzəldən səsini.
Papaqlı atalar, çadralı analar.
Ötürmüş sayəndə köksünü.
Düşmüşlər gah şirin, gah acı toruna.
Sevinə-sevinə, qoruna-qoruna.

Çarparaq çargahın divardan-divara
Yolçunu yolundan eyləmiş avara.
Çalxalanmış dərələr, təpələr.
Səs vermiş səsinə ləpələr.
Oxu, tar, fikrimdə oyansın
Baharın, Seyidin qəzəli:
Oxu, tar, ruhlansın
Şirvanın, Gəncənin mehriban gözəli!
Damağdan düşənlər,
Ürəyi şişənlər,
İlk bahar seyrinə çıxmayan.
Özünü dağların döşünə yaxmayan
Sinəsi dağlılar.
Vəfasız bir eşqin dağınıq zülfünə bağlılar
Dəxilin olmuşlar,
Qapında təsəlli bulmuşlar.
Zilin var, vəsətin, bəmin var:
Sənin də quşların dəmindən ayrılan
Bir özgə dəmin var,
Səni də avara eyləmiş
Dağınıq telli bir "zərəfşan".
Onunçun segahın danışır
Pərişan, pərişan.

Səsini dinləmiş
Şahların, xanların sarayı;
Səninlə birlikdə inləmiş
  Əsirlər alayı.
Bəzən də simlərin qəmləri ovutar,
Olardın onların sirdaşı
  Sən ey tar!..